# Ölümə meydan oxuyanlar...



**35 il öncə Azərbaycan xalqına qarşı amansız cinayət törədildi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları tərəfindən dinc əhaliyə amansızlıqla divan tutuldu. Bakıda və respublikanın bir neçə rayonunda 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu...**

20 Yanvar faciəsi müstəqillik uğrunda apardığımız mübarizənin rəmzi kimi tariximizə yazıldı. Lakin o gecə xain plan quranlar vətən uğrunda canımızdan keçməyə hazır olduğumuzu nəzərdən qaçırmışdılar... Unutmuşdular ki, bu xalq milli mücadilədən əsla vaz keçməz...





### Şəhidlər xiyabanı sanki qərənfil dənizində üzür

20 Yanvar şəhidlərinin son mənzili olan Şəhidlər xiyabanı xalqımızın qürur, fəxr yeridir. Soyuq yanvar havasında xiyabanda matəmin otuz beşinci ildönümü ilə bağlı hazırlıq işləri vaxtında başa çatdırılıb. Hər il olduğu kimi, burada taleyi bir gecədə dəyişən qərənfillərdən xüsusi kompozisiyalar hazırlanıb. Xiyaban sanki qərənfil dənizində üzür. Hara baxırsan, al qərənfillərin nizamla düzüldüyü mənzərə görünür.

Ümumxalq Hüzn Gününə sayılı günlərin qaldığı bir vaxtda Bakının ən uca yeri - Şəhidlər xiyabanında izdiham müşahidə olunur, ziyarətçilərin ardı-arası kəsilmir. Bu, xalqımızın müstəqilliyi və azadlığı yolunda qurban gedənlər qarşısında vətəndaşlıq borcunun, onların müqəddəs və əbədi xatirəsinə göstərilən hörmət və ehtiramın ifadəsidir. Qəhrəmanların xatirəsini yad edərkən Ümummilli Liderimiz Heydər Əliyevin bu fikirləri yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

### "Əgər bu gün müstəqil ölkədə yaşayırıqsa, bu, qəhrəmanlarımız sayəsindədir"

Şəhidlər xiyabanını ziyarətə gələnlər arasında böyükdən-kiçiyə, yaşlıdan-körpəyə - hər kəsi görmək olar. Ziyarətçilərin əksəriyyətinin məktəblilər olması isə təqdirəlayiqdir. 115 saylı məktəbin tarix müəllimi Sevinc Rəhimova şagirdlərini mütəmadi olaraq hər il Şəhidlər xiyabanını ziyarət etməkçün gətirdiyini deyir: "Bu gün 7-ci sinif şagirdləri ilə gəlmişəm. Yeniyetmə dövründə bunun xüsusilə vacib olduğunu düşünürəm. Düzdür, vətənpərvərlik qanımızda var. Amma biz də yeniyetmələrin yöngöstərəni olaraq onlara Vətənin hər qarışının qiymətini bilməyi öyrətməliyik. Biz matəm gününü yalnız bu müqəddəs məkana gəlməklə yad etmirik. Xalqımızın tarixinə qara hərflərlə yazılmış 20 Yanvar faciəsini məktəbdə, dərslərimizdə yad edir, tədbirlər keçiririk".

Vətən sevgisi uşaqlara həm də kiçik yaşlarından aşılanmalı, təlqin edilməlidir. 62 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Rəna Xanlarova deyir ki, məhz buna görə xiyabana məktəbəqədər hazırlıq qrupu ilə gəlib: "Əsas məqsədimiz cəmiyyətimizin gələcəyi olan uşaqları Azərbaycana layiq vətəndaş kimi yetişdirməkdir. Sevindirici hal odur ki, uşaqlarımız özləri də tariximizi öyrənmək, qəhrəmanlarımızı tanımaq istəyirlər. Xalqımızın yaşadılan bu və digər faciələri, Vətən uğrunda canlarından keçən qəhrəmanlarımızı unutmamalıyıq, unutdurmamalıyıq".

Şəhidlər xiyabanını ziyarət edərkən pilləkənləri əsasından güc alaraq qalxan yaşlı vətəndaş diqqətimizi çəkir. Valeh dayı deyir ki, yanvarın 19-undan 20-sinə keçən o məşum gecəni dünən yaşanmış kimi xatırlayır: "Şəhərin mərkəzində qalırdım. Qışqırıq, silah səslərini eşidib özümü çölə atmışdım. Hər yer qan gölünə çevrilmişdi. O gün şəhid olanların heç birinin günahı yox idi. Həmin vaxt and içdim. Nə qədər canım sağdır, nəfəsim gəlir, hər il xiyabanı ziyarətə gələcəyəm. Əgər bu gün müstəqil ölkədə yaşayırıqsa, bu qəhrəmanlarımız sayəsindədir".

### Vətən sevgimizi heç kim bizdən ala bilməz

Bu gün Bakı matəm libasında olsa da, qürurluyuq. Çünki biz 1990-cı ilin 20 yanvar gecəsi təpədən-dırnağadək silahlanmış sovet ordusunun Azərbaycan xalqının azadlıq istəyini boğmaq məqsədilə tanklarla üzərinə yürüdüyü yalın əlli insanlar deyilik. Otuz ildən çox düşmən tapdağında qalan torpaqlarımızın hər qarışı azadlığına qovuşub, ərazi bütövlüyü təmin edilib. Rahat, dərindən nəfəs ala bilərik, biz ölümə qalib gəlmiş xalqıq.

Şəhidlər xiyabanından çıxarkən əllərində bayraqlar, qərənfillər himn oxuya-oxuya gələn məktəbli dəstəsi ilə qarşılaşırıq. Onların səslərindəki əzm, gözlərindəki inam göstərir ki, Vətən sevgimizi heç kim bizdən söküb ala bilməz.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*












Azərbaycan. - 2025.- 19 yanvar (№ 12).- S.11.